# Narkomaniya müasir dövrün qlobal problemidir

Narkotik maddələr orqanizmə daxil olduqdan sonra psixoloji və fiziki dəyişikliklərə səbəb ola bilən və asılılıq yarada bilən kimyəvi maddələrdir. Bu maddələr təbii və ya sintetik ola bilər. Narkotik maddə asılılığı, saxta xoşbəxtlik hissi verən maddənin müəyyən təsiri əldə etmək üçün lazım olan istifadəsi müddətində ortaya çıxan, fiziki, psixi və sosial problemlərə baxmayaraq, maddə istifadəsinin davam etdirilməsi və bu istəyin durdurula bilmədiyi bir vəziyyətdir. Maddə istifadəsi adətən maraq və sınaqdan başlayır. Narkotik beyin funksiyalarına və bütün orqanizmə təsir edir. Zamanla bütün orqanlara qalıcı ziyan vurur. Zehni və davranış problemləri yaradaraq, insanın yaxın münasibətlərinə , ictimai və peşə həyatına mənfi təsir göstərir. Maddə asılılığı insanın bütün sahələrdə qabiliyyətini azaldır. Buna baxmayaraq, insan asılılıq səbəbiylə maddə qəbul etməyə davam edir.

Narkotizmin ictimai təhlükəsi onun qeyri-qanuni təzahürünün əhalinin sağlamlığı əleyhinə yönəlməsində ifadə olunur. İlk növbədə narkotik maddə qəbul edən şəxsin sağlamlığına, onun vasitəsilə isə ailəsinə, uşaqlarının sağlamlığına, bütövlükdə isə cəmiyyətin genefondunun gələcəyinə ziyan vurur, son nəticədə onu cəmiyyətin faydalı üzvləri sırasından çıxarır.

Təəssüflər olsun ki, gənclər və yeniyetmələr arasında narkotiklərə aludəçilik halları müşahidə olunmaqdadır. Maddə asılılığında fərdi xüsusiyyətlərinin əhəmiyyəti yoxdur. Onu istifadə edən hər kəs eyni asılılıq riskini daşıyır. Bununla birlikdə ətraf amillər böyük əhəmiyyət kəsb edir. Maddəni asanlıqla əldə edə bilmək, rahat istifadə edilə biləcək bir mühitə sahib olmaq və dost qrupunda istifadə edə bilmək riski artırır. Bir maddə istifadə edildikdən sonra nə qədər tez və şiddətlə yalançı "xoşbəxlik" yaranırsa, bir o qədər tez asılılıq yaradır. Xüsusilə 15 ilə 25 yaş arasında olan gənclər, narkomaniya riski altındadır. Ancaq təəssüf ki, maddə istifadəsinin başlanğıc yaşı 15 yaşdan aşağıdır. Gənclər, adətən, maraqlı, cəsarətli və yeniliklərə açıqdırlar. Duyğular tez dəyişir. Tez sevinirlər və tez kədərlənirlər. Uğurlu olmağı sevirlər. Görünüşə əhəmiyyət verirlər. Narkotizmlə mübarizə uzunmüddətli, çoxşaxəli, dinamiklik tələb edən bir prosesdir.

Bəs gəncləri narkotik maddə asılılığından necə qoruya bilərik?

Gəncləri maddə istifadəsindən qorumaq üçün ilk addım onları problemlərinin öhdəsindən gələ bilən və həll yolları tapa bilən, məsuliyyətli, özünə güvənən, müstəqil bir fərd olaraq yetişdirməkdir. Bu baxımdan valideynlərin üzərinə böyük vəzifələr düşür. Yeniyetməlik dövrünün xüsusiyyətlərini öyrənmək, həddindən artıq qoruyucu hərəkət etməmək, biganə qalmamaq, dostların əhatəsini bilmək, dəyişiklikləri görmək, mühakimə etmədən dinləmək, təhdid etməmək, səbr və anlayış göstərmək, və ən əsası öz davranışları ilə nümunə göstərmək lazımdır.

Narkomaniya xəstəliyinə yoluxanlara diqqət və mərhəmətimizi bir an belə əsirgəməməli, onların dözülməz ağrı və iztirablarına biganə qalmamalı, sarsıntılarını aradan qaldırmalı, onları saglam həyata qaytarmaq üçün əlimizdən gələni etməliyik. Bu məqsədlə yeni müalicə üsulları aranmalı, tibbi axtarışlar davam etdirilməli, mövcud mübarizə vasitələrindən geniş istifadə olunmalıdır.

Hazırda dünyanın ən böyük sosial bəlalarından olan, cəmiyyətin inkişafına mənfi təsir göstərən narkotizm və onunla bağlı cinayətkarlıq real təhlükəyə çevrilərək, bu təhlükəli təzahürə qarşı beynəlxalq səviyyədə fəal birgə mübarizə səylərini məqsədyönlü şəkildə birləşdirərək təxirəsalınmaz əməli tədbirlərin həyata keçirilməsi zərurətini yaratmışdır.

Son illərdə Azərbaycan Respublikasında narkotiklərə qarşı mübarizə üzrə əsaslı qanunlar qəbul edilmiş və həmçinin tədbirlər həyata keçirilmişdir. Məlum olduğu kimi Azərbaycanda narkotik vasitələrin və psixotrop maddələrin alınması, saxlanması, satılması, əldə edilməsi, paylaşdırılması, buraxılması, daşınması, göndərilməsi, istifadə edilməsi, onların dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, narkotik tərkibli bitkilərin kultivasiyası, narkotik vasitələrin və psixotrop maddələrin istehsalı, dərman preparatlarının və xammalın hazırlanması qanunla qadağan edilmişdir. Məsələnin aktuallığı ilə əlaqədar Azərbaycan Respublikasının ulu öndərimiz Heydər Əliyev cənabları narkomanlığa, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edərək, 26 avqust 1996-cı il tarixdə müvafiq fərman imzalamış və bu problemin həlli üçün keçirilən tədbirləri keyfiyyətcə yeni səviyyəyə qaldırmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin narkomanlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə dövlət və hüquq-mühafizə orqanlarından konkret nəticələr tələb etməsi bu qlobal problemin ölkəmizdə yayılması təhlükəsinə qarşı Azərbaycanın qətiyyətli mövqeyini əks etdirir.

2018-ci illəri əhatə edən və cənab Prezident tərəfindən təsdiq edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə 3 Dövlət Proqramı uğurla icra edilmiş və hazırda 2019-2024-cü illəri əhatə edən 4-cü proqram təsdiq olunmaqla icrası davam etdirilir.

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın çərçivəsində respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə gücləndirilmiş, antinarkotik təbliğatı, ictimai maarifləndirmə işinin əhatəsi genişləndirilmiş, müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması istiqamətində qətiyyətli addımlar atılmış, narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir texnologiyaların və yeni üsulların tətbiq edilmiş, həmçinin bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq təcrübədən istifadə etməklə ixtisaslaşmış seminarların keçirilməsi və digər genişmiqyaslı tədbirlər davam etdirilir.

**Nərmin AĞAYEVA,**
**Qəbələ rayon prokurorunun köməkçisi,**
**III dərəcəli hüquqşünas.**

# Peşəkarlıq

*(Reportaj)*

Azərbaycan mətbəxi dünyanın ən zəngin mətbəxlərindən biridir. Azərbaycan milli mətbəxi təkcə xörəklər, onların hazırlanması texnologiyasının üsulları deyil, həm də maddi mədəniyyətin əsas hissələrindən biridir.

Mətbəximizin tarixi də xalqımızın tarixi qədər qədimdir. Kulinariyamız öz tarixi kökləri və özünəməxsüslüğü ilə o birilərindən xeyli fərqlənir. Əsrlər davam etdikcə tədricən yeni-yeni xörək və şirniyyatlar əmələ gəlirdi və xalqın yaddaşında möhkəmlənirdi.

Bu yaddaşları yaşatmaq və təzələmək istəyən biri ilə görüşmək və onun bacarığı, çalışqanlığı ilə daha yaxından tanış olmaq istədik. Elə buna görə də işlədiyi kiçik müəssisəyə üz tutduq.

Bir neçə il əvvəl gördüyüm bu kiçik müəssisəni həqiqətən tanımadıq, ilk baxışdan səliqəli görünüşü diqqəti cəlb edirdi. Müəssisəyə daxil olarkən burada çalışanların səliqəli geyimi, mehriban davranışı bizə xoş təsir bağışladı. Vitrin-soyuducularda açıq və qablaşdırılmış müxtəlif növ şirniyyatlar öz düzülüşü ilə də zövq oxşayırdı.

Şirniyyat məhsullarının hazırlanması və bişirilmə sexi ayrı idi. Burada çalışanlar da öz işini bilən, bacarıqlı şirniyyatçılar idi. Satışla bərabər müəssisə daxilində şirniyyatlardan istifadə etmək və xoş istirahət keçirmək üçün şərait yaradılmışdı. Ayrı-ayrı stollar üzərində aksesuarlar belə zövqlə seçilmişdi. Həmçinin şirniyyatlarla çay dəstgahına gələn müştərilərə də nümunəvi qulluq göstərilirdi. Ən başlıcası o idi ki, buradakı məhsullar keyfiyyətinə, çeşidinə və sərfəli qiymətlərinə görə fərqli idi. Məhz buna görə də alıcılar «Elşən şirniyyat evi»ndən həmişə razılıqla, «ağız dolusu» danışırdılar.



Biz müəssisəyə gedərkən bizi müəssisədə çalışanlar qarşıladı. Müəssisənin rəhbəri Elşən Muradxanov sonradan gəldi. Onunla tanışlıq çox maraqlı oldu. Belə ki, bu müəssisənin rəhbərinin adının həqiqətən Elşən deyil, Rəşad olduğunu öyrəndik. Ancaq buraya müraciət edənlər Elşəni Rəşad kimi deyil, elə Elşən kimi tanıyırdılar. Elşən Muradxanov ilə söhbət zamanı öyrəndik ki, Elşən onun dünyasını dəyişmiş qardaşı olmuşdur. Bu haqda onunla söhbət zamanı dedi ki:

- Elşən Muradxanov məndən yaşca böyük qardaşım idi. O, sərhəd qoşunlarında xidməti dövründə terror qurbanı olmuş, 1999-cu ildə rəhmətə getmişdir. Qardaşımın ikinci cümə axşamında anam onun ölümünə dözməyərək dünyasını dəyişdi...

Gənc yaşlarında arzuları nakam olan qardaşımın adını yaşatmaq naminə bu müəssisəyə Elşən adını vermişdim. Buraya müraciət edən hər kəs məni elə Elşən kimi tanıyır və bu adla müraciət edirlər.

Elşən (Rəşad) Muradxanov xeyirxahlığı ilə də rayon əhalisi arasında hörmət qazanmışdır. Hər kəs öz bacardığı tərzdə və gücü müqabilində xeyirxah əməlləri özünə missiya seçirsə, deməк o şəxsdə insanlıq duyğuları daha zəngindir. Çünki xeyirxahlıq bizə babalardan miras qalmış bir xüsusiyyətdir. İnsani duyğuları zəngin olan hər kəs ehtiyacı olanlara daima həm maddi, həm də mənəvi dəstək olmalıdır.

Elşəni daha yaxından tanımaq istədikdə o dedi ki:

- Mən Vəndam qəsəbəsində anadan olmuşam. Qəsəbə 2 saylı orta məktəbi 1998-ci ildə bitirmişəm. Ali məktəbə imtahan verib qəbul olunsam da, (iqtisadçı olmaq istəyirdim) ödənişli şöbəyə düşdüyüm üçün təhsilimi davam etdirə bilmədim. 1999-cu ilin iyul ayında həqiqi hərbi xidmətə getdim. Murovda hərbi xidmətdə olmuşdum. Onu da qeyd edim ki, o illərdə general Polad Həşimov 2-ci batalyonda batalyon komandiri idi, mən isə 4-cü batalyonda sıravi əsgər idim.

Təhsilimi Qəbələ Peşə Məktəbində davam etdirdim və mühasib ixtisasına yiyələndim.

Hərbi xidmətdən sonra bir müddət Bakıda Əcəmi metrosuna yaxın «Sünbül» şirniyyat evində işlədim. Sonra Rusiyada yaşayan bacımın yanına getdim. Moskvada «Veqas» ticarət mərkəzində paxlava şirniyyat evində işlədim. Orada bir neçə il işlədikdən sonra vətənə qayıtdım və Qəbələdə otellərdə şirniyyatçı kimi fəaliyyət göstərdim. Artıq bu peşəyə öyrəşmişdim. Peşənin sirlərini də öyrənirdim. Ona görə də kiçik müəssisə açmağı qərara aldım.

10 il əvvəl, fevralın 26-da (qardaşımın doğum günü idi) Qəbələdə bu müəssisəni açdım və 9 ildir burada fəaliyyət göstərirəm.

Elşən (Rəşad) Muradxanovla şirniyyat çeşidləri və keyfiyyəti haqda da söhbət apardıq. Onunla söhbət zamanı həqiqətən də onun əsil şirniyyatçı kimi yetişdiyini və peşəsinə vurğun olduğu hiss olunurdu.

O qeyd etdi ki, Azərbaycan mətbəxi - o cümlədən Azərbaycan şirniyyatı çox zəngindir. Milli şirniyyat məhsullarımız 3 qrupa bölünür: unlu, karameləoxşar və konfetəoxşar. Bizim müəssisədə ən çox unlu şirniyyatlar hazırlanır. 150-yə yaxın şirniyyat süfrəsi üçün məhsul hazırlayırıq. Əlbəttə, milli kulinariyamızın əsas şirniyyatı sayılan şəkərbura, paxlava, qoğal, badambura, həmçinin Qəbələ şirniyyatı - düyü qorğası, üçqulaq paxlava, Həmzəli halvaları (qoz və küncütlü) həmişə ön planda sayılır və daima hazır şirniyyatlarımız olur. Həmçinin kiçik ölçüdə milli kulinariyamızdan əlavə pizza və türk böyrəkləri də hazırlayırıq.

Biz - müəssisənin bütün kollektivi rayonumuzun əhalisinə, eləcə də rayonumuzun qonaqlarına həmişə nümunəvi xidmət göstərməyə çalışırıq.

Müəssisə kollektivinə uğurlar diləyərək onlardan xoş təəssüratla ayrıldıq.

**Bibixanım İSAYEVA.**